*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 sentyabr 2019-cu il № 68 (2385) Qiymətı 30 qəpik


*Ön xətdən reportaj*

# Qələbəyə gedən yolun açıq olsun!



*Yayın qızmarında, qışın sazağında Vətənin keşiyində dayanan hərbçilərimizə ön xətt bölmələrində xidmət etmək nə qədər fəxrlidirsə, onlarla görüşüb arzu və istəklərini, şərəfli xidmətlərinin bir anını yazıya köçürmək biz jurnalistlər üçün bir o qədər qürurvericidir. Gecə-gündüz ön xətdə sinəsini düşmənə sipər edən oğulları təbiətin dəyişkənliyi qorxutmur. Onlar döyüş növbətçiliyini sayıqlıqla aparır, düşmənin törətdiyi təxribatların qarşısını cəsarətlə alırlar. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olan əsgər və zabitlərimiz Vətənə, xalqa, dövlətə xidmətlərini uğurla yerinə yetirir, içdikləri Hərbi andın müqəddəsliyini özlərinə həyat amalı bilirlər.*

Yolumuz düşmənlə təmas xəttində döyüş tapşırıqlarını şücaətlə yerinə yetirən Vətənin cəsur müdafiəçilərinin xidmət etdiyi məkana - səngərədir. Yayın orta ayı olsa da, havada yaz sərinliyi duyulur. Göyün üzünü duman alıb. Sürətli külək əsir. Hərbçilərimiz deyirlər ki, dünənki istidən bu gün əsər-əlamət yoxdur. İqlimin belə tez dəyişməsi, həqiqətən də, təbiətin möcüzəsidir.

Yolboyu gördüyümüz yam-yaşıl taxıl zəmiləri, yonca sahələri, bağça-bağlar, bir sözlə, zəhmətkeş insanların əməyinin məhsulu olan bu gözəlliklər göz oxşayır. Torpağı da bərəkətlidir bu yerlərin. Yerli əhali daima əkir, becərir, qış tədarükünü hazırlayır. Bu ərazilərdə yay fəsli daha isti keçir. Ərazinin coğrafi mövqeyi daha çox torpaq təpələrdən və uzandıqca uzanan düzənliklərdən ibarətdir.

...Yola bələd olan sürücü bəzən sıralanan təpələri çox asanlıqla keçib düzənliyə çıxa bilir. Onun bu bacarığı gözümüzdən yayınmır. Sürücü deyir ki, burada doğulub-böyüyüb, bu yerləri yaxşı tanıyır, hər daşına, kəsəyinə bələddir.

Gecəsi-gündüzü olmayan vətənpərvər hərbçilərimizin fədakarlığı sayəsində mərdliklə qorunan bu ərazilərimizi illərdi ki, Ermənistan silahlı qüvvələri atəşə tutur. Əsgər və zabitlərimizin ayıq-sayıqlığı nəticəsində erməni silahlılarının atəş nöqtələri vaxtında susdurulur, düşmənin kəşfiyyat-diversiya qruplarının hücum cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Düzənlik yol çay daşları ilə örtülüdür. Hətta bu yolda payız-qış mövsümünə hazırlıqla bağlı əlavə tədbirlərin görüldüyünün də şahidi oluruq. Yol bizi düşmənin hər hərəkətini sayıqlıqla izləyən ordumuzun vətənsevər əsgər və zabitlərinin qərar tutduğu məkana - səngərə aparır.

Bizi müşayiət edən "N" hərbi hissənin zabiti Niyazi Dadaşov ön xətt bölmələrimizin şəxsi heyətinin döyüş, mənəvi-psixoloji hazırlıqlarının ən yüksək səviyyədə olduğunu, onların daimi fiziki hazırlıqlarının artırılması və asudə vaxtlarının səmərəli təşkili istiqamətində də zəruri tədbirlərin görüldüyünü deyir: "Düşmən atəşkəsi pozarsa, hücuma cəhd göstərərsə, yüksək döyüş hazırlığında olan hərbçilərimiz tərəfindən onların qarşısı peşəkarlıqla alınır. Təmas xətti düşmənlə üzbəüzdə gördüyümüz təpəlik, düzənlik ərazilərdən keçir. Düşmənin daha çox atəşkəsi pozduğu mövqelərimizdən olan bu ərazilərdə əməliyyat şəraiti ordumuzun nəzarətindədir. Əsgər və zabitlərimiz bu yerləri göz bəbəyi kimi qoruyurlar. Onların sayıqlığı, əzmkarlığı sayəsində müdafiə möhkəm qurulub. Şəxsi heyət düşmən işğalında olan torpaqlarımızın azadlığı uğrunda Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin döyüş əmrinə hər an hazırdır".

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri: "Yüksək döyüş hazırlığı səviyyəsinə nail olmaq ordumuz qarşısında duran ən mühüm vəzifələrdəndir"

*Avqustun 31-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəislərinin, birlik komandirlərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmələrin komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, orduda aparılan islahatlar, o cümlədən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məsələlərinə toxunan Müdafiə naziri hərbi hissələrin müasir silah-sursatla təmin edilməsi və döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasının Azərbaycan Ordusunun güclənməsində və torpaqlarımızın işğaldan azad edilməsində əhəmiyyətli rol oynayacağını qeyd edib. Nazir bu istiqamətdə fəaliyyətlərin yüksələn templə davam etdiriləcəyini bildirib.

Müdafiə naziri intensiv döyüş hazırlığı ayının yekunlarını təhlil edərək bütün hərbi hissələrdə, xüsusilə ön xətdə yerləşən bölmələrdə döyüş fəaliyyəti ilə əlaqədar həyata keçirilən tədbirlərin keyfiyyətinin yüksəldiyini qeyd edib.

Nazir növbəti aylarda qoşun növləri, birlik, birləşmə və hərbi hissələrdə döyüş hazırlığı üzrə təşkil olunan məşqlərin və təlimlərin sayının artırılması, onların direktiv və təlimatlara uyğun daha səmərəli təşkili, eləcə də şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə yönəlmiş digər tədbirlərin keçirilməsi ilə bağlı tələbləri müşavirə iştirakçılarına çatdırıb.

General-polkovnik Zakir Həsənov, həmçinin dağlıq və çətin relyefli ərazilərdə döyüş növbətçiliyi aparan bölmələr üçün maddi-texniki təminat ehtiyatlarının yaradılması, hərbi qulluqçuların təhlükəsizliyinin təmin edilməsi, mövqelərdə, strateji kommunikasiya xətlərində, daşınma yollarında mühəndis-istehkam işlərinin daha keyfiyyətli aparılması və digər vacib məsələlərlə əlaqədar vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

Sonda Müdafiə naziri qarşıdakı aylarda Azərbaycanda keçirilməsi nəzərdə tutulan beynəlxalq və cəbhəboyu zonada yerləşən hərbi hissələrdə planlaşdırılan digər genişmiqyaslı təlimlərə hazırlıqla bağlı əmr və sərəncamların yüksək səviyyədə icrasını tələb edib.

# Qələbəyə gedən yolun açıq olsun!

**(Əvvəli 1-ci səhifədə)**

Zabit N.Dadaşov artıq cəbhə xəttinə - bölmələrimizin yerləşdiyi səngərlərə çatdığımızı bildirir. Ərazidə sanki həyat qaynayır. Nahar yeməyinə hazırlıq aparılır. Döyüş növbəsindən qayıdan şəxsi heyət ona təhkim olunan silahı təhvil verərək, dincəlməyə hazırlaşır. Ön xətt bölmələrimizdəki məişət şəraiti və ərzaq təminatı ilə maraqlanırıq. Bunun üçün də əsgər yataqxanasına və yeməkxanasına baş çəkirik. Burada şəxsi heyətin sosial məişət şəraiti yüksək səviyyədə yenidən qurulub və ön xətt bölməmiz ərzaqla təmin edilib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elçin İmanov əvvəlki illərlə müqayisədə bu gün cəbhə xəttində yerləşən bölmələrimizin məişət şəraitinin və ərzaq təminatının yüksək səviyyədə olduğunu deyir: "Ali Baş Komandanımız orduya çox böyük diqqət və qayğı göstərir. Şəxsi heyət üçün yaradılan şərait, əlbəttə ki, bu diqqətin və qayğının nəticəsidir. Ordu rəhbərliyi daima döyüş bölgəsində xidmət edən hərbçilərimizlə görüşür, onlara layiqli xidmətlərinə görə qiymətli hədiyyələr təqdim edir. Bütün bunlar bizim döyüş əzmimizi möhkəmləndirir, düşmən üzərində qələbəyə ruhlandırır".

E.İmanov əslən düşmən işğalında olan Füzuli rayonunun Seyid Əhmədli kəndindəndir. Hərbi xidmətini başa vurduqdan sonra yenidən ordu sıralarına qayıdıb. Deyir ki, torpaqlarımızın azad olunacağı günə qədər hərbi xidmətini davam etdirəcək.

Döyüş növbəsindən yenicə qayıdan əsgər Fuad Hümbətovla da həmsöhbət oluruq:

- Ağır iqlim şəraitində düşmənlə üzbəüz mövqedə dayanmaq çətin deyil?, - sualımızı əsgər belə cavablandırır. "Nə qədər çətindirsə, bir o qədər də şərəflidir. Burada Vətənimizi, xalqımızı düşmənin törədə biləcəyi təxribatlardan qorumaq Azərbaycan əsgərinə qürur verir. Biz Vətənimizə sədaqətli əsgər olacağımıza and içmişik. Hər birimiz komandirlərimizin döyüş tapşırığını layiqincə yerinə yetirməyə borcluyuq".

Fuad əslən Laçın rayonundandır. 27 ildir ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Laçın rayonunun gözəl təbiəti barədə o, valideynlərindən eşidib. Atası Azər müəllim (Hazırda o, Laçının kənd məktəblərindən birində tarix müəllimi işləyir) Laçın, Şuşa uğrunda gedən döyüşlərin fəal iştirakçılarından olub. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərə həmişə hazır olduğunu deyən Fuadın görmədiyi ata yurdunu işğal edən düşmənə sonsuz nifrəti var. Fuad söhbətimizin sonunda qətiyyətlə bildirir ki, şəhidlərimizin qisasının alınacağı, erməni vəhşilərinin işğalı altında olan Vətən torpaqlarının azad ediləcəyi gün heç də uzaqda deyil.

Əsgər Asif İsmayılov ön xətt bölmələrimizdə xidmət edən nümunəvi əsgərlərdəndir. Düşmənlə üzbəüz mövqedə Vətənin keşiyində dayanan Asif artıq hərbi xidmətin çətin günlərinin arxada qaldığını deyir. "Hələ orta məktəb



illərində ibtidai hərbi hazırlıq dərsləri zamanı təlim silahlarından istifadə qaydalarını öyrənmişdim. Məktəbdə qazandığım təcrübə hərbi xidmət zamanı köməyimə çatdı. İlk vaxtlarda təlim-məşq zamanı qarşılaşdığım çətinlikləri asanlıqla dəf edə bildim. Mənə təhkim edilən silahın taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə qaydalarını mükəmməl bilirəm. Bunun üçün təlimlərdə bizə gərgin əmək sərf edən təcrübəli komandirlərimizə borcluyuq. Mən də hər bir Azərbaycan əsgəri kimi içdiyim Hərbi anda sadiq qalaraq, Ali Baş Komandanın döyüş əmrinə həmişə hazıram".

Döyüş növbəsinə hazırlaşan həmsöhbətimiz əsgər Həzi Alıyev hərbi xidmət dövründə - səngərdə mətinləşərək, böyük təcrübə qazandıqlarını deyir. "Ön xətdə düşmənlə üzbəüz mövqelərimizdə xidmət etmək hər birimiz üçün qürurvericidir. Bir neçə aydan sonra hərbi xidmətimizin müddəti bitəcək. Lakin burada səngərdə yaranan dostluğumuzu, qardaşlığımızı daha da möhkəmləndirib, o günləri əsgər həyatımızın ən xoş, şərəfli günləri kimi xatırlayacağıq".

Müşahidə məntəqəsində döyüş növbəsi çəkən əsgər Natiq Əhmədova yaxınlaşaraq soruşuruq:

- Döyüş növbətçiliyin necə keçir?

- Əla. Düşmən tərəfimizdən sayıqlıqla izlənilir, - deyə əsgər N.Əhmədov gözlərini ön mövqelərdən çəkmədən bizimlə söhbətinə davam etdi: - Hər bir əsgərin həyatında hərbi xidmət dövrü dərin iz buraxır. Çünki ömrümüzün çətin imtahan mərhələsi olan bu dövr bizi sınağa çəkir. Biz bu sınaqdan alnıaçıq, başıuca çıxmağa borcluyuq. Bu bizim Vətən qarşısında olan övladlıq borcumuzdur.

- Mütəmadi keçirilən təlim-məşqlərdən nə deyə bilərsiz?

- Davamlı olaraq keçirilən təlim-məşqlərə gəldikdə isə, bizim bölmənin əsgərləri həmişə yüksək nəticələr göstərir. Atış və döyüş hazırlığı məşğələlərində silahlardan istifadə qaydalarını bizə ordumuzun peşəkar zabitləri, gizirlər, təcrübəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları böyük həvəslə öyrədirlər. Dünən təlimdə tökdüyümüz tər, bu gün döyüşdə bizə uğur qazandırır.

Göyün üzündəki duman yavaş-yavaş çəkilməyə başlayır. Külək bir qədər səngiyib. Tək-tək yağan yağış damcılarını Azərbaycan əsgərinin Böyük Qələbə üçün çıxacağı yola səpilən su hesab edirəm, qələbəyə gedən yolun açıq olsun, Azərbaycan əsgəri!...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb

*Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təliminin başlanması ilə əlaqədar brifinq keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan, Türkiyə və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edənlər keçirilən təlimin hər üç ölkənin silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsində və uzlaşmanın təmin edilməsində mühüm rol oynadığını vurğulayıblar.

Qeyd olunub ki, hər üç ölkənin ərazisindən keçən beynəlxalq əhəmiyyətli birgə strateji layihələrin təhlükəsizliyinin təmin olunması üzrə iştirakçıların biliklərinin artırılmasında, onların əməliyyat, təlim və analitik bacarıqlarının inkişaf etdirilməsində, həmçinin mühafizə fəaliyyətini həyata keçirən bölmələr arasında qarşılıqlı uzlaşmanın təkmilləşdirilməsində bu təlim mühüm əhəmiyyət kəsb edir.

# Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində əməliyyat toplanışı və komanda-qərargah təlimi keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan Ordusunun qoşun növləri və birliklərinin qərargah rəisləri, həmçinin Müdafiə Nazirliyinin baş idarə və xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin müavinlərinin iştirakı ilə əməliyyat toplanışı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplanışın keçirilməsində məqsəd əməliyyatlara hazırlıq zamanı qərargahların işinin təşkili və döyüş fəaliyyətlərinin hərtərəfli təminatının planlaşdırılması, qoşun növləri arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi, eləcə də qərargahlarda döyüş sənədlərinin müvafiq tələblərə uyğun işlənilməsi, o cümlədən hərb sənəti və qoşunların idarə edilməsi üzrə bilik və bacarıqların təkmilləşdirilməsi olub.

* * *

Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb.

Təlimdə əsas məqsəd komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitdə mövcud qüvvələrin və ehtiyatların tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Təlimə cəlb olunan heyət simulyasiya sistemləri vasitəsilə döyüş fəaliyyətləri zamanı bölmələrin fasiləsiz, bacarıqla və qətiyyətlə idarə edilməsi üzrə tapşırıqları icra ediblər.

# "TurAz Qartalı-2019" təlimlərində iştirak edəcək F-16 təyyarələri Azərbaycana gəlib

*"TurAz Qartalı-2019" birgə təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri Azərbaycana gəlib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sentyabrın 2-dən 16-dək keçirilən təlimlərdə MiQ-29, F-16, Su-25, P-235 "Kasa" təyyarələri, Mi-35, Mi-17, "Sikorski" UH-70, CH-47 "Çinok" və ATAKAH-1W helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edir.

# Əlahiddə Ümumqoşun Orduda praktiki məşğələlər və snayperlərin toplantısı keçirilib

Naxçıvanda ordu və motoatıcı birləşmələrin artilleriya hissə və bölmələri ilə atış və atəşin idarə edilməsi mövzusunda praktiki məşğələlər keçirilib. Plana əsasən, "Həyəcan" siqnalı ilə müdafiə zolağı dərinliyindəki döyüş təyinatlı rayonlarına çıxarılan artilleriya hissə və bölmələri taktiki və manevr fəaliyyətləri yerinə yetiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, şərti düşmənin fəaliyyəti təkcə yerüstü kəşfiyyat vasitələri ilə deyil, həm də pilotsuz uçuş aparatları ilə izlənilib. Qərargahların və komandirlərin döyüş zamanı bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirildiyi məşğələlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

* * *

Naxçıvan Qarnizonu Qoşunlarında snayperlərin toplantısı keçirilib. Toplantıda əsas məqsəd kəskin relyef və iqlim şəraitinə malik olan Naxçıvan ərazisində fəaliyyət göstərmək üçün şəxsi heyətə yüksək dözümlülük, təmkinlik, fiziki hazırlıq kimi xüsusiyyətlərin aşılanması olub.

"Ən yaxşı snayper" adı uğrunda keçirilən yarışda snayperlərin müxtəlif üsullarla maskalanması və müşahidə aparmaq bacarıqları yoxlanılıb, müxtəlif məsafələrdə yerləşən hədəflərə atışlar icra edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 4-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Martin Şuster keçirəcəklər.

## Sentyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il sentyabrın 1-dək 102.500.283,98 AZN, 213.577,88 ABŞ dolları, 17.266,0 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*3 sentyabr 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Hərbiyyə-2019” hərbi vətənpərvərlik düşərgəsində Türkiyənin Zəfər bayramı günü qeyd edilib

**Mustafa Kamal Atatürk:**

*"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır".*

**Heydər Əliyev:**

*"Biz bir millət, iki dövlətik. Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir".*



*Müdafiə Nazirliyi, "ASAN xidmət", Gədəbəy rayon İcra Hakimiyyəti, "ASAN Könüllüləri" təşkilatı, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), “Cavad Xan” Tarix və Mədəniyyət Fondunun birgə layihəsi çərçivəsində bir həftədir ki, davam edən "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin sonuncu günü türk zəfər marşlarının və Azərbaycan-Türkiyə qardaşlığını tərənnüm edən mahnıların səsləndirilməsi ilə başlanıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 30 avqust "Zəfər bayramı"na həsr olunmuş təntənəli mərasimdə düşərgənin gənc vətənpərvərləri ilə yanaşı, Müdafiə Nazirliyinin, Gədəbəy rayon İcra Hakimiyyətinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmiləri, bölgənin müdafiəsində dayanan hərbi hissənin döyüşçüləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri ifa olunub.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Azərbaycan-Türkiyə qardaşlığından danışıb, 30 avqust "Zəfər bayramı"nın tarixi barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, Birinci Cahan savaşından sonra Osmanlı Türkiyəsi parçalanmaq təhlükəsi qarşısında qalarkən Mustafa Kamal Paşa öz tərəfdarları ilə mücadiləyə qalxaraq ölkəni işğalçılardan azad edib, təcavüzkar dövlətlərin qoşunlarının ölkə ərazilərindən çıxarılmasına nail olublar. 1923-cü ildə ilk dəfə, 1936-cı ilin mayından sonra isə rəsmi olaraq 30 avqust günü "Zəfər bayramı" kimi qeyd edilməyə başlanıb.

A.Qurbani nəzərə çatdırıb ki, Türkiyə ilə Azərbaycanın şanlı ənənələrə bağlı tarixi dostluğu və qardaşlığı bu gün də uğurla davam etdirilir. Türkiyə dövlətinin qurucusu ölməz Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır", ulu öndər Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik. Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir" kəlamları bu gün də aktualdır və dostluğumuzun, qardaşlığımızın ən böyük şüarına çevrilib.

Türkiyə və Azərbaycanın iqtisadi, siyasi və mədəni əlaqələri, eləcə də hərbi əməkdaşlığı bu gün də yüksək səviyyədədir və daha da inkişaf edir. Hər iki ölkənin iştirakı ilə möhtəşəm layihələr həyata keçirilir.

Ötən il Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda tarixi gerçəkliklərin canlandırılması, Türkiyə və Azərbaycanın dövlət bayraqları altında hərbçilərin fəxri keçidi, "Türk Ulduzları" eskadrilyası və Azərbaycanın milli şahinlərinin Bakı səmasında birgə nümunəvi uçuşları, qardaş ölkələrin prezidentlərinin fəxri kürsüdə bir yerdə bu təntənəni izləmələri dostlarımızı sevindirdi, düşmənlərimizi isə xar etdi.

Bakı paradının mötəbər tribunasından Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha bəyan etdi ki, Azərbaycanın qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev isə "Bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq", - dedi.



Mərasimdə vurğulanıb ki, Türkiyə və Azərbaycan ordularının nümayəndələrinin birgə təlimləri artıq ənənə şəklini alıb. Bu günlərdə yenə də "TurAz Qartalı" birgə uçuş təlimlərinə start veriləcək.



Müdafiə Nazirliyinin rəsmisi bildirib ki, hər il 30 avqust günündə qardaş Türkiyədə hərbi məktəblərin məzunlarına "leytenant" hərbi rütbəsi verilir. Onların sıralarında Azərbaycan oğulları da yetərincədir. Bu il də neçə-neçə azərbaycanlı gənc Türkiyə ali hərbi məktəblərini müvəffəqiyyətlə bitirərək zabit rütbəsinə layiq görülüb.

Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev çıxış edərək Müdafiə Nazirliyinə 30 avqust "Zəfər bayramı"nı "Hərbiyyə" düşərgəsində təşkil etdiyinə görə minnətdarlıq edib.

"Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsində keçirilən ümumi hərbi hazırlıq, xüsusi dağ hazırlığı, atıcılıq və digər yarışlarda fərqlənən gənc vətənpərvərlərə, Qarabağ müharibəsi qazilərinə, həmçinin qonaqlara Müdafiə Nazirliyinin nəşri olan "Azərbaycan-Türkiyə: Qardaşlığın Təntənəsi" kitab-albomları hədiyyə edilib.

Hərbi orkestr "Mehtər" marşlarını, Azərbaycan Milli Konservatoriyasının tələbələri Nicat və Rəvan Əliyevlər isə türk vətənpərvərlik mahnılarını ifa ediblər.

Tədbir Üzeyir Hacıbəyli və Əhməd Cavadın birgə yazdıqları "Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına" misrası ilə başlanan məşhur mahnının bütün iştirakçılar tərəfindən birgə ifası ilə başa çatıb.



## Azərbaycanın tarixi bayraqlarının sərgisi açılıb

"Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanın tarixi bayraqları" sərgisi açılıb.

**(Ardı 5-ci səhifədə)**

# Gənc vətənpərvərlər "Hərbiyyə-2019" düşərgəsindən xoş təəssüratlarla ayrılıblar



(Əvvəli 4-cü səhifədə)

Düşərgənin gənc vətənpərvərləri ilə yanaşı, Müdafiə Nazirliyinin əməkdaşları, Gədəbəy rayon İcra Hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümayəndələri, veteranlar, eləcə də bölgənin müdafiəsində dayanan hərbi hissənin şəxsi heyəti sərgiyə böyük maraqla tamaşa ediblər.

Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bildirib ki, bayraq hər hansı bir ölkənin mövcudluğunu, şərəf və ləyaqətini əks etdirən müqəddəs rəmzdir. Ölkələrin özlərinə bayraq təyin etməsi orta əsrlərin əvvəllərində, döyüşlərdə tərəflərin bir-birilərini ayırd edə bilmələri məqsədilə başlanıb. Məhz bayraqları öyrənən veksillologiya elmi təsdiq edir ki, bəşər sivilizasiyasının ən qədim məskənlərindən biri olan, böyük dövlətçilik tarixinə malik Azərbaycan da zaman-zaman mövcud olan öz bayraqları ilə tarixdə mühüm yer tutub.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bayrağa həmişə yüksək önəm vermiş və Ulu Öndərimizin sayəsində paytaxtımızda, eləcə də ölkəmizin bir çox bölgələrində Bayraq muzeyləri yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaldırılan üçrəngli dövlət bayrağımız ötən əsrin 90-cı illərinin əvvəllərində yenidən Naxçıvanda ucaldılmış, az sonra isə Azərbaycan Respublikasının Dövlət bayrağı kimi qəbul edilmişdir. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamına əsasən, 2010-cu ildən başlayaraq "Dövlət bayrağı günü" təntənəli surətdə qeyd olunur.

Sərgidə Midiya, Qaraqoyunlu, Ağqoyunlu, Cəlairilər, Eldənizlər, Səfəvilər dövlətlərinin, Bakı, Şəki, Qarabağ, İrəvan, Gəncə xanlıqlarının, Nadir şah Əfşarın, Cavad Xanın, Qacarların bayraqları, həmçinin Azərbaycanın Xalq Cümhuriyyəti dövründən bu günə kimi qəbul olunmuş bayraqlar nümayiş olunub, hər bir bayraq haqqında geniş məlumat verilib.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları Əli Məmmədov və Canəli Hüseynov tamaşaçıların suallarını cavablandırıblar.

### "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin bağlanış mərasimi

Gədəbəy rayonunda "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Mərasimdə Müdafiə, Gənclər və İdman nazirliklərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmiləri, Gədəbəy rayon İcra Hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümayəndələri, bölgənin müdafiəsində dayanan hərbi hissənin döyüşçüləri, müxtəlif rayonlardan gəlmiş müharibə veteranları və qazilər, şəhid ailələrinin üzvləri iştirak ediblər.

Əvvəlcə respublikamızın 10 bölgəsini təmsil edən 100-ə yaxın "ASAN Könüllüləri" komanda bayraqları altında, hərbi orkestrin müşayiəti ilə mərasim keçirilən meydana dəvət ediliblər.

Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından düşərgənin uğurla başa çatması münasibətilə təşkilatçıları və gənc vətənpərvərləri təbrik edib.

Qeyd olunub ki, müharibə şəraitində yaşayan ölkədə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, şanlı döyüş tariximizin öyrənilməsi, əcdadlarımızın qəhrəmanlıq ənənələrinin təbliği, Vətənə, dövlətə, xalqa, orduya sədaqətli oğulların yetişdirilməsi başlıca vəzifələrdəndir və bu məsələlərə ölkə rəhbərliyi səviyyəsində xüsusi önəm göstərilir. Müdafiə Nazirliyinin rəhbərliyi irəli sürülən hər bir vətənpərvərlik təşəbbüsünü alqışlayır, görülən işləri orduMuza, ölkəmizin müdafiə qüdrətinin daha da gücləndirilməsinə dəstək kimi təqdir edir.

Prezidentin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin gənclərdə yüksək əxlaqi, mənəvi və iradi keyfiyyətlərin aşılanması, vətənpərvər gənclərin yetişdirilməsi, gənclərin orduya hazırlanması istiqamətində həyata keçirdiyi layihələr təqdirəlayiqdir.

"ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabarova düşərgənin bir həftəlik fəaliyyəti barədə hesabat xarakterli çıxış edib və gözlədiklərindən də artıq nəticələr əldə olunduğunu bildirib. O, könüllülər üçün yaradılan hər cür şəraitə görə Müdafiə Nazirliyinin, "ASAN Xidmət"in, Gədəbəy rayon İcra Hakimiyyətinin, "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) rəhbərliyinə minnətdarlıq edib. Könüllülərin yenidən bu yerlərə qayıtmaq arzusu ilə Gədəbəydən ayrılacaqlarını vurğulayıb.






Düşərgədə keçirilən ümumi hərbi hazırlıq, xüsusi dağ hazırlığı, atıcılıq və digər taktiki təlimlərdə, yarışlarda, eləcə də kütləvi hərbi vətənpərvərlik tədbirlərində fərqlənən komandalara və yüksək nəticələr əldə etmiş gənc vətənpərvərlərə Müdafiə Nazirliyinin təsis etdiyi kuboklar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub. "ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabarovaya respublikamızda hərbi vətənpərvərlik işinin təşkilində fəal iştirakına görə Müdafiə nazirinin şəxsi hədiyyəsi təqdim edilib.

Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev düşərgə iştirakçılarını bir daha təbrik edib, onların hər birinin "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsindən qalib kimi ayrılacaqlarına əminliyini bildirib.

Bütün iştirakçılara və Qarabağ müharibəsinin qazilərinə Gədəbəy rayon İcra Hakimiyyətinin və "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun xatirə hədiyyələri təqdim edilib.

Polkovnik Abdulla Qurbani düşərgənin fəaliyyətində xüsusi xidmətlərinə görə "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənova öz şəxsi kolleksiyasından Cavad Xanın bayrağının surətini, Gədəbəy rayon Rus icmasının sədri Nikolay Bıçkova isə Kremlin təsviri olan keramik əl işini hədiyyə edib.

Gənclər və İdman Nazirliyinin Vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sektorunun müdiri Əli Məmmədov və "ASAN Xidmət"in məsul əməkdaşı Cahangir Hacıyev çıxış edərək düşərgənin təşkilində və uğurla başa çatmasında xidməti olan hər kəsə minnətdarlığını bildirib, gənc vətənpərvərlərə "yaxşı yol" arzulayıb.




Bütün göstəricilər üzrə birinci yerə layiq görülən "Ağdam" komandasının üzvləri düşərgənin bayrağını endiriblər.

"Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsi "Hər əmrinə hazırıq, cənab Ali Baş Komandan!" mahnısının ifası ilə başa çatıb.

Hərbi orkestrin ifa etdiyi "Heyratı" marşının və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin bədii təşviqat dəstəsinin səsləndirdiyi vətənpərvərlik mahnılarının sədaları altında gənc vətənpərvərlər cəbhəyanı bölgədəki düşərgədən xoş təəssüratlarla ayrılıblar.

AZƏRBAYCAN ORDUSU

# “N” hərbi hissəsində mədəni-kütləvi tədbir keçirildi

*"N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə mədəni-kütləvi tədbir təşkil olundu.*



Hərbi hissənin şəxsi heyətinin, "TurAz Qartalı-2019" təlimlərinə dəvət alan Türkiyə və Gürcüstan Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun, ölkəmizin tanınmış incəsənət nümayəndələrinin iştirak etdiyi mədəni-kütləvi tədbirdə çıxış edən H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov hər kəsi salamlayaraq keçirilən birgə tədbirlərin əhəmiyyətindən danışdı: "Asudə vaxtın səmərəli təşkil olunması məqsədilə keçirilən bütün tədbirlərimizin yalnız bir məqsədi var: şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və onlara vətənpərvərlik ruhunun aşılanması, qəhrəmanlığın, igidliyin tərənnüm olunması. Bilirik ki, qəhrəmanlıq, vətənpərvərlik mövzusunda mahnılardan ibarət konsert proqramları şəxsi heyətin mənəvi-psixoloji ruhunun yüksəlməsində, döyüş hazırlığında nə qədər böyük rol oynayır. Hər birinizə xoş, səmərəli istirahət arzulayıram".

Tədbirin aparıcısı H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova belə tədbirlərin cəbhə bölgəsində yerləşən hərbi hissələrimizdə mütəmadi olaraq, eyni zamanda, əlamətdar bayram günlərində keçirildiyini dedi. Zabit böyük konsert proqramlarının tezliklə işğaldan azad olunacaq Qarabağımızda, Şuşamızda və digər rayonlarımızda təşkil olunmasını və şəxsi heyətin qarşısında qələbə ruhlu mahnıların ifa edilməsini arzuladı.



Mədəni-kütləvi tədbir rəngarəng rəqslərlə, müxtəlif xalqların dillərində səsləndirilən musiqilərlə, o cümlədən Azərbaycan xalq musiqisi nümunələrindən ibarət mahnılarla, vətənpərvərlik ruhlu, qəhrəmanlığı tərənnüm edən hərbi marşlarla davam etdi.

Konsert proqramı şəxsi heyətdə, qonaqlarda xoş ovqat yaratdı.

Sonda konsert proqramının təşkilində fəal iştirakına görə bir qrup incəsənət nümayəndəsinə hərbi hissənin komandanlığı adından fəxri fərmanlar təqdim olundu.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Şəhid ailələri və övladları üçün gəzinti təşkil olundu

*Bu günlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, "Şəhid Övladlarına və Kimsəsiz Uşaqlara Yardım" İctimai Birliyinin və Zirə Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə bir qrup şəhid ailəsi və onların övladları üçün gəzinti təşkil olundu.*

Qonaqlar ilkin olaraq tarixi mədəniyyət mərkəzi olan İçərişəhər, Şirvanşahlar sarayında oldular. Qonaqlara Şirvanşahlar dövlətinin yaranma tarixi, fəaliyyət dövrü, hökmdarları haqqında məlumat verildi. Qeyd edildi ki, tarixin qədim və silinməz izlərini özündə əks etdirən sarayda olduqca qədim və qiymətli tarixi əsərlər saxlanılır.

Daha sonra qonaqlar Zirə Mədəniyyət Mərkəzini ziyarət etdilər. Burada qonaqlar şahmat zalı, art studiya otağındakı rəsm əsərləri və xalçaçılıq bölməsindəki müasir və milli xalçalarımızla tanış oldular.

Şəhid övladları mərkəzin ərazisində yaradılmış uşaq oyun meydançasında əylənərək gözəl gün keçirdilər, sonra onlar üçün hazırlanmış yemək və çay süfrəsi arxasında əyləşdilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərildiyini vurğuladı. Zabit qeyd etdi ki, Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. “Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.”

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova da dövlətin, ordu rəhbərliyinin şəhid ailələlərinə, qazilərə göstərdiyi diqqət və qayğıdan söz açdı. "Azadlıq və müstəqillik uğrunda canlarını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə dövlətin diqqət və qayğısı yüksək səviyyədədir. Bu gün təşkil olunan gəzinti də şəhid ailələri və övladlarına yuxarı rəhbərlik tərəfindən göstərilən qayğının təzahürüdür. Şəhid övladları üçün bu gün hər cür şərait yaradılır, onların problemləri yerindəcə həll olunur."

"Şəhid Övladlarına və Kimsəsiz Uşaqlara Yardım" İctimai Birliyinin sədri, şəhid pilot Təbriz Musazadənin həyat yoldaşı Pərişan Musazadə bu gün şəhid ailələrinə göstərilən diqqət və qayğıdan söz açdı. "Dövlətimiz hər zaman bizə qayğı ilə yanaşır, problemlərimizlə maraqlanır. Bütün şəhid ailələri, övladları bilir ki, dövlət, ordu daim onların yanındadır. Həmişə özümüzü dövlətin əhatəsində hiss edirik."



Pərişan Musazadə, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə, Zirə Mədəniyyət Mərkəzinin rəhbər və işçi heyətinə şəhid övladlarına bu cür gözəl, xoş gün yaşatdıqları üçün bütün valideynlər adından öz minnətdarlığını bildirdi.

Tayfun, Onur, Nihad və digər şəhid övladları da onlara göstərilən diqqət və qayğıdan məmnun olduqlarını bildirdilər.

Sonda tədbir iştirakçıları Zirə Mədəniyyət Mərkəzində ulu öndər Heydər Əliyevin ucaldılmış büstü önündə xatirə şəkli çəkdirdilər.

**Kapitan
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu"**

# Zirvələr fəth edilmək üçündür

*Övladının yaxşı əməllərini gördükcə, xoş xəbərlərini eşitdikcə valideyn illərinin hədər getmədiyinə sevinir. Çəkdiyi əzab, yorğunluq əriyib gedir övladına qətiyyətlə baxan gözlərində. Sevinc dolu gözlər deyir ki, özündən sonra nəslin davamçısı olacaq layiqli varisi yetişib, Vətən torpaqlarını şərəflə qoruya biləcək bir oğul böyüdüb, sonra bu ev sahibsiz qalmayacaq. İllərin yorğunluğu atanın üz cizgilərində daha aydın hiss olunur. Üzündəki qırışıqlıqlar arasında rəqs edərək süzülən tər damlaları, al günəş altında görməkdən çətinlik çəkərək qıyılan gözləri, istidən qovrulan qızılı dərisi uşağının rahat gələcəyi üçün bir vasitəçidir.*

Atanın ən xoşbəxt günlərindən biridir, oğlu hərbi xidmətə yola düşür. Beynində və qəlbində yaşananlar qarışıq duyğudur, əslində. Quraqlıqla daşqın, soyuqla isti, gecəylə gündüz kimi təzad təşkil edir hiss etdikləri. Amma bu xətt yaxşıya doğru istiqamət alır. Həmin an fikirlər kordioqram cizgisitək uzanır, enir-qalxır.

Artıq vaxt yetişdi... Ata əli köksündə dalğalanan bayrağa baxaraq sanki nə qədər sevincli olduğunu anlatmaq istəyir. Uzun müddət bu mənzərə gözünün önündə silinməyən xatirələrtək canlanır. O da belə yola salınmışdı Vətən qulluğuna. Artıq onun getdiyi yolu oğlu gedəcək. Onun da övladlarına danışacaq əsgərlik xatirələri olacaq.

Əsgərə torpağı Vətən qədər sevməyi öyrətmişdi valideynləri. Mənzil başına çatdıqda qolları yer üzünü qucaqlayan Günəşə baxdı. Günəşin şəfəqləri əsgərin çilli, bir az da kobud sifəti ilə təmas etdi. Onu gününistisi düşündürmürdü. Ağlında və fikrində yalnız komandirlərinin göstərişlərini qeyd-şərtsiz yerinə yetirib xidməti nümunəvi şəkildə başa vurmaq idi. Bu minvalla çıxmışdı uzun yola. Yol daşlı-kəsəkli, ot-ələfli, cığırsızdır. İz buraxmaq isə sənin vəzifəndi. Bu zaman qanadının biri zədəli şahini düşün. Uça bilmir və sonda məhv olur. Sənin də Vətənə olan sevgin həmin şahinin qanadlarıdır. Eşqin tam və sonsuzdursa, bu yolda sənə ölüm yoxdur.

Vətəni Vətən boyda sevən silah yoldaşın ən müqəddəs ada yüksəldi: Şəhidlik zirvəsinə. Zirvələr fəth edilmək üçündür. Ancaq bu yüksəkliyə qalxmaq hər insana nəsib olmur. Şəhid atası övladının məzarına sarılan bayrağı öpüb, başına qoyur. Udqunmaq heç bu qədər çətin olmamışdı uzun illərdən bəri. Budur, bir damcı yaş süzüldü yorğun gözündən. Lakin cəld silməyə çalışdı. Əlindəki bayrağa baxaraq övladının rəşadətinin böyüklüyünü bir daha anladı. Bayrağın qatını açaraq çiyinləri üzərinə örtdü.

Atanın sevinci cümlələrə sığmırdı. Vətən üçün, millət üçün böyütdüyü övladı onun uğrunda şəhid oldu, torpağa qovuşdu. Açan hər bir çiçək, hər bir ot, ağac şəhidin torpağından xalqına, millətinə ərməğandır.

Biz "Nur" kəlməsini eşitmişik, ancaq necə olduğu haqqında təsəvvürümüz yoxdur. Lakin indi anladıq ki, həmin "Nur" Siz imissiz - yerin-göyün bizə bəxş etdiyi igid Fədakarlar!..

**Hüsniyyə İDRİSOVA,
BSU-nun III kurs tələbəsi**

# Əlahiddə Ümumqoşun Orduda səmti müəyyənetmə birinciliyi keçirilib



Naxçıvan qarnizonu qoşunları üzrə hərbi qulluqçular arasında səmti müəyyənetmə birinciliyi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışdan əvvəl Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini iştirakçılara çatdıraraq komandalara uğurlar arzulayıb.

Sonra 15 komandadan 60 hərbi qulluqçunun gücünü sınadığı birinciliyə start verilib. Gərgin mübarizə şəraitində keçən birinciliyin şərtlərinə əsasən hərbi qulluqçular 8 km məsafədə 10 nöqtəni aşkar ediblər. Yarışın keçirilməsində məqsəd hərbi qulluqçuların kompas və xəritədən istifadə etməklə səmti müəyyənetmə vərdişlərini təkmilləşdirmək, dözümlülüyünü yoxlamaq və ən bacarıqlı idmançıları müəyyən etmək olub.

Naxçıvan qarnizonu qoşunları üzrə hərbi qulluqçular arasında keçirilən səmti müəyyənetmə yarışında komanda hesabında 1-ci yerdə xüsusi təyinatlı birləşmənin, 2-



ci yerdə tank hissəsinin, 3-cü yerdə isə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandası qərarlaşıb. Fərdi hesabda isə 1-ci yerə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mahir İbrahimov, 2-ci yerə gizir Kamran Mustafazadə, 3-cü yerə gizir Məhəmməd Rüstəmov layiq görülüblər. İlk üçlükdə yer alan idmançı və komandalar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

## Ön xətdə düşüncələr

# "Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!"



İctimaiyyətin istəyini, niyyətini ifadə edən bu gözəl fikri, gərəkli fikri, dövlətçiliyə sədaqəti şərtləndirən fikri ön xətdə ezamiyyətdə olanda səngərdə bir səmimi söhbət zamanı əsgərlərdən eşitmişdim. "Mən azərbaycanlıyam!", - deyənlərin könül mülkünün sultanı olası belə qadir fikri böyük ehtiramlarla vətənsevərlər düşüncələrinə necə hopdurursa, mən də eləcə hopdurmuşdum. Ötən ezamiyyətdən bəri yaddaşımdan da, düşüncələrimdən də üzülməyən bu kəlamı da, Faxralıda eşitdiyim bir deyimi də səngərdə yenidən xatırlayıram: "Deyən qadir deyil, dedizdirən qadirdi". "Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!" fikrini onda əsgərlərimizə milli-xəlqi ruhumuz dedizdirmişdi, şübhəsiz, bu fikri də, bu deyimi də mənə milli-xəlqi ruhumuzun yaşarılığı, bəşəriliyi xatırlatmışdı. Səngərə çatacatda bu fikrin necə yarandığını da xatırlayıram: müharibədən, döyüşlərdən, 2016-cı ilin Aprel döyüşlərindən, Lələtəpə, Bayraqtəpə, Günnüt zəfərlərindən, şəhidlərdən, şəhidlikdən danışmışdıq. Söz sözü çəkmişdi, Vətən, torpaq, dövlət. Dövlətçilik ünvanlı fikirlərə söykəkli bu gözəl, bu yaşarı fikir düşüncələrimizin nizamına dönmüşdü. Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq, yəni, torpaqlarımız işğaldan azad ediləcək, yəni, müharibə başa çatacaq, döyüşlərdə qələbə qazanan Azərbaycan əsgəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordumuzun 100 illiyinə həsr olunmuş möhtəşəm, baxımlı paradda əminliklə dediklərini yaxın vaxtlarda gerçəkləşdirəcək, yəni, Böyük Qələbə ərəfəsindəyik...

Mahiyyət "Səngərləri sərhədlərə köçürəcəyik!" - fikriylə səsləşən "Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!" - fikrinə ön xətdə xidmət edən zabit Rüstəm Məmmədovun heysiyyətli münasibəti üreyimi dağa döndərir: "Hər iki fikir Azərbaycan Ordusunun qüdrətinə, döyüşlərdə qələbə qazanacağına inamı ifadə edir. Bu inam son illərdə həyata keçirilən irimiqyaslı islahatlarla, genişmiqyaslı təlimlərlə bağlı olduğuna görə ona reallıq deyə bilərik". Zabit gözucu əsgərlərə baxır, yəni, bu inam həm də sənin hərbi xidmətinin nəticəsidir, əsgər. Və fikrini qətiyyətlə davam etdirir: "Bu inam ordunun Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağına əminlikdi, 2016-cı ilin Aprel döyüşlərində qələbə qazananların sələflərinin Hərbi anda, dövlətə sədaqətinin, vətənsevərliyinin səviyyəsinin ifadəsidi...".

Zabit Roman Vəliyevin etibara, güvəncə söykəkli baxışları hələ də əsgərlərdən üzülməyib; belə baxışların ifadəliyinə rəğbət deyərdim və əminəm ki, buna görə heç kim məni qınamayacaq. Mənim eyni məzmunlu baxışlarım zabit Rüstəm Məmmədovun baxışlarına sarılıb, yəni, bu gözəl, könüləyatımlı kəlamların qaynaqlandığı inama, amala, güvəncə görə çox sağ ol. Sözlə ifadə etmədiyim fikri təşəkkürü zabit də başa düşür, əsgərlər də; əsgərlərin baxışlarında bir məmnunluq görürəm və bu məmnunluğun ardıcıllığıyla soruşuram:

- Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq fikrinə siz nə deyərdiniz?

Əsgər Şöhrət Abdurəhmanov deyir:

- Biz əsgərik. İstənilən döyüş tapşırığını, əmrini yerinə yetirməyə hazırıq. Bu, bizim hər birimizin hərbçi borcumuzdu. Çox istərdik ki, bizə torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüş əmri veriləydi. Döyüşəydik. Əminəm ki, biz həmin əmri qələbəylə tamamlayarıq. Dediyimiz fikir ondan sonra reallaşacaq. Azərbaycan Ordusu buna qadirdir və yaxın vaxtlarda sərhədlərimizin bu üzündə səngər qalmayacaq, bizdən sonra əsgərlər səngərsiz torpaqlarımızda xidmət edəcəklər.

Əsgər Amil Nadirov deyir:

- Səngər müharibə, müharibə səngər deməkdi. Müharibə başa çatmalıdır ki, sərhədlərimizin daxilində səngər olmasın. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. O günə az qalıb. Ordumuz güclüdür...

Zabit Gündüz Quliyev əsgərin sözünə, fikrinə qüvvət kimi deyir:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qürurla deyib: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu qürur hər birimizin qürurudur...

Əsgər fikrini belə tamamlayır:

- 2016-cı ilin aprelində qazanılan qələbəni biz də Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəyimiz böyük qələbənin başlanğıcı bilirik.

Əsgərin sözünə qüvvət kimi deyirəm ki, dediyin böyük qələbəyə Böyük Qələbə deyəcəyik.

Amil daha sonra deyir ki, Aprel döyüşləri Azərbaycan Ordusunun buna qadir olduğunu təsdiqlədi. Biz həmin qələbəni qazanacağıq, müharibə başa çatacaq, səngər olan torpaq yenidən torpaqlarımıza qarışacaq...

Əsgərin işıqlı fikirləri hamımızı duyğulandırır: Azərbaycan əsgəri bir vaxtlar əziyyətlərlə qazılıb səngərləşdirilən torpaqlara - əraziyə yenidən torpaq ömrü yaşadacaq...

Söhbəti bir qədər də şaxələndirmək üçün əsgərlərə xitabən deyirəm:

- Bayaqdan bəri deyilən fikirlər haqqında düşünürsünüz. Bütün hərbçilər torpaqlarımızı işğaldan azad etmək, müharibəni başa çatdırmaq üçün xidmət edir.

Əsgər Şöhrət Abdurəhmanov xatırlatmama belə münasibət bildirir:

- Elədir, bizim hərbi xidmətimiz məhz buna görədi - torpaqlarımızı işğaldan azad etmək. Bu məqsəd, niyyət indiyə kimi "Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!" - kimi ifadə edilməmişdi. Hamımızın - hərbçilərin də, ictimaiyyətin də istəyini ifadə edən bu fikri yaxın vaxtlarda reallaşdıracağıq. Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik. O döyüşlərdə qazanacağımız qələbələrdən sonra sərhədlərimiz daxilində səngərlərə ehtiyac olmayacaq, yəni, səngərlər olmayacaq.

Zabit Orxan Həmidov əsgərlərə xitabən deyir:

- Birlikdə oxuduğumuz məqalədə "Açıq qapı" günündə kəlbəcərli qaçqının dedikləri yadındadımı? Dərdəcər kişi demişdi ki, el-obamıza qayıtmaq, əlim ev-eşiyimin daşına-divarına dəysin, ondan sonra dünyada heç bir arzum qalmaz. Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edəcək, qaçqınlar ev-eşiyinə qayıdacaq. Ondan sonra torpaqlarımıza səngər düşməyəcək.

- O məqaləni oxuyanda Səməndərin dediklərini, yəqin ki, unutmayıbsınız: "Azərbaycan Ordusu qələbə qazanacaq, kaş ki, qalib əsgərlərin sırasında biz də olaydıq." Bugünkü söhbətdə eşitdiyimiz o kəlamı belə ifadə etsəm, məni qınamayın: kaş ki, biz də səngərləri sərhədlərə köçürəcək qalib əsgərlərin sırasında olaydıq!.. , - deyirlər.

... İctimaiyyətin istəyini, niyyətini, murazını ifadə edən "Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!" - fikri ön xətdə səngərdə elə əzəmətlə, elə möhtəşəmliklə səslənir ki!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə Prezidenti: Fərat çayının şərqini terrorçulardan təmizləməkdə qərarlıyıq




Suriyada və Aralıq dənizinin şərqində baş verən proseslər Türkiyə üçün xüsusi əhəmiyyətli məsələlərdir. Bu prosesləri seyr etməklə kifayətlənmək niyyətində deyilik.

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sədrlik etdiyi Ədalət və İnkişaf Partiyasının Konya vilayət toplantısında ifadə edib. Prezident diqqətə çatdırıb ki, Türkiyə Fərat çayının şərqini terrorçulardan təmizləməkdə qərarlıdır.

Qeyd edək ki, Türkiyə və ABŞ Fərat çayının şərqini terrorçulardan təmizləməkdə, o cümlədən Suriya ilə dövlət sərhədi boyunca təhlükəsizlik zolağının təmin edilməsində israrlıdır.

### İran istehsalı olan daha bir pilotsuz uçan aparat təqdim edilib



Bu gün İran yeni istehsal etdiyi "Kian" adlı daha bir pilotsuz uçan aparatını (PUA) təqdim edib.

Təqdimat mərasimində İranın Müdafiə Nazirliyinin yüksək vəzifəli generalları qatılıb. İranın Hava Hücumundan Müdafiə Qüvvələrinin komandanı general Əlirza Sabahfərd bildirib ki, bu aparat uzun müddət ərzində havada qalaraq düşmən təyyarələrini dəqiq izləmək imkanına malikdir.

Onun sözlərinə görə bomba daşımaqla yanaşı yeni aparat, həm də foto və video çəkib qərargaha ötürə bilər. Yeni PUA bir il ərzində yerli mütəxəssislər tərəfindən hazırlanıb və tamamilə İran istehsalıdır. Onun hazırlanması zamanı xaricdən heç bir detal alınmayıb.

### Norveçdə helikopterin qəzaya uğraması nəticəsində 4 nəfər həyatını itirib



Norveçin "Helitrans" şirkəti tərəfindən istifadə olunan "Airbus AS350" helikopteri Alta şəhərindən cənub-qərbdə qəzaya uğrayıb.

Mülki helikopterin qəzaya uğraması nəticəsində dörd nəfər ölüb, bir nəfər itkin düşüb və bir nəfər isə yaralanıb.

### "Taliban" və hökumət qüvvələri arasında Kunduz şəhəri uğrunda döyüşlərdə 76 nəfər ölüb



Əfqanıstanda "Taliban" silahlıları və hökumət qüvvələrinin Kunduz şəhəri uğrunda döyüşlərində 76 nəfər ölüb, 80 yaralı var.

Kunduz şəhəri və ətrafında iki gündən artıq davam edən qızğın döyüşlərdə Əfqanıstan təhlükəsizlik qüvvələrinin 20 əsgəri, "Taliban" hərəkatının isə 56 döyüşçüsü öldürülüb. Məlumatı ölkənin Daxili İşlər Nazirliyi yayıb.

Məlumatda qeyd olunur ki, hazırda şəhərdə vəziyyət sabitdir, polisin və əsgərlərin birgə səyləri ilə vəziyyət normallaşıb. Nazirliyin sözçüsü Nüsrət Rəhimi əlavə edib ki, "Taliban" silahlıları şəhərə üç istiqamətdən hücum ediblər və Kabildən əlavə qüvvələrin cəlb olunması sayəsində onlar ağır itkilər verərək Kunduzu tərk ediblər. Döyüşlərdə şəhərin polis rəisi, polkovnik Sərvər Hüsseyni də həlak olub.

Daxili İşlər və Müdafiə nazirləri vəzifələrini icra edənlər Əsədullah Xalid və Məsud Əndərabi, habelə ABŞ və NATO qoşunlarının Əfqanıstandakı komandanı, general Skot Miller Kunduzda vəziyyətlə tanış olmaq üçün bölgəyə səfər ediblər.

Kunduzdan sonra "Taliban" silahlıları Bağlan əyalətindəki Pul-e-Xumri şəhərinə hücum ediblər. Burada döyüşlərin davam etdiyi, Bağlan magistral yolun yaxınlığında terrorçuların bomba partlatması nəticəsində 5 polisin də həlak olduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Səmti müəyyənetmə yarışının qalibləri mükafatlandırıldı

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi Azərbaycan Ordusunun hazırlıq planına əsasən, hərbi qulluqçular arasında növbəti səmti müəyyənetmə yarışları keçirildi.*





Ayrı-ayrı qoşun növləri və xidmət sahələrindən yarışlara cəlb edilən komandalar ərazidə səmti müəyyən etmək bacarıqlarını sınayaraq idmançılar fərdi birincilik uğrunda mübarizə apardılar.

İlk mərhələdə yarış iştirakçıları uzun məsafəyə qaçaraq, xəritə üzərində göstərilən hədəfləri müəyyənləşdirdilər. Mərhələnin şərtlərinə əsasən kişi hərbi qulluqçular 9,3 km məsafədə 16 nöqtəni, qadın hərbi qulluqçular isə 6,8 km məsafədə 15 nöqtəni aşkar etdilər. Yarışın ikinci mərhələsində idmançılar qısa məsafə qət edərək, xəritə üzərində kişi hərbi qulluqçular 6,1 km məsafədə 11 nöqtəni, qadın hərbi qulluqçular isə 4,3 km məsafədə 9 nöqtəni aşkar etdilər.

Bu il yarışların daha effektiv təşkili və keçirilməsi məqsədilə beynəlxalq standartlara uyğun olaraq elektron çiplərdən istifadə edildi, nəticələr Müdafiə Nazirliyinin nümayəndələri və Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyasının hakimlər komissiyasının üzvləri tərəfindən qiymətləndirilərək qaliblər müəyyənləşdirildi.

Yarışların nəticələrini elan etmək məqsədilə "N" hərbi hissəsində mükafatlandırma mərasimi keçirildi.

Mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin nümayəndəsi polkovnik Sadiq Paşayev yarışa qatılan hərbi qulluqçulara dərin minnətdarlığını bildirərək keçirilən yarışın əhəmiyyətindən söz açdı. "Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, hər ay müxtəlif idman növləri üzrə ordumuzda çempionatlar keçirilir. İndi də səmti müəyyənetmə birinciliyi başa çatdı. Müqayisə etsək, əminliklə deyə bilərəm ki, iştirakçıların peşəkarlığı ildən-ilə artır. İdmançılar hər il yarışlara daha əzmkarlıqla hazırlaşırlar. Bu, çox sevindirici haldır. Bu il Səmti Müəyyənetmə İdman Federasiyasının hakimlər komissiyasının köməyi ilə yarışların beynəlxalq standartlara uyğun olaraq keçirilməsi böyük əhəmiyyət kəsb edir. Gələn ildən yarışlar yalnız gündüz deyil, gecə vaxtı da keçiriləcək. Artıq bu istiqamətdə hazırlıq işləri aparılır. Qarşımızda duran əsas vəzifələrdən biri ordu sıralarında xidmət edən hərbi qulluqçuların fiziki və döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, azimutla hərəkətin daha da inkişaf etdirilməsi və hər an



döyüş meydanında düşməni məğlub etməyə hazır olmasıdır. Azərbaycan Ordusunun zabiti olaraq ən ümdə arzumuz düşməni ata-baba yurdlarımızdan qovmaq, növbəti yarışlarımızı Qarabağda keçirməkdir."

Natiq çıxışını başa vurduqdan sonra yarış iştirakçılarının mükafatlandırma mərasimi baş tutdu. Yarışın yekun nəticəsinə əsasən, Bakı yığma komandası qalib gələrək keçici kuboku qazandı. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin komandası ikinci, Hərbi Hava Qüvvələrinin yığma komandası isə üçüncü yerə layiq görüldü.

Fərdi şəkildə qadın hərbi qulluqçular arasında mayor Cəmilə İrəfiyeva birinci, əsgər Pərvanə Heydərova ikinci, əsgər Nilufər Tarverdiyeva və əsgər Məryəm Ziyadxanova üçüncü, kişi hərbi qulluqçular arasında isə kiçik çavuş Dair Cumartov birinci, kapitan Adıköklü Xudeynatov ikinci, çavuş Nurlan Nəzərov üçüncü yerə layiq görüldülər.

Yarışın qalibləri fəxri fərman və medallarla təltif olundular.

Xatirə şəkli çəkdirdikdən sonra qaliblərin təəssüratlarını öyrənmək üçün onlara yaxınlaşdıq. İlk həmsöhbətimiz Bakı yığma komandasının rəhbəri mayor Şəadət Nəsibovdur. Zabit yarışlarda iştirak edən komandaların şəxsi heyətinin hazırlığının yüksək səviyyədə olduğunu bildirdi.

- Sevindirici haldır ki, qalib komandanın rəhbəriyəm. Qələbə uğrunda gərgin mübarizə gedirdi. Nəticədə komandamız birinciliyi əldə edi. Mütəmadi məşqlərin sayəsində komandamız zəhmətinin bəhrəsini gördü. Bildiyiniz kimi, qələbəni qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Ötən il komandamız birinci olmuşdu. Bu il də kuboku qoruyub saxlaya bildik. İndi isə qarşımızda duran məsuliyyətli vəzifə növbəti səmti müəyyənetmə yarışlarında birinciliyi qazanmaqdır. Bunun üçün qısa istirahətdən sonra növbəti ilin yarışına hazırlaşacağıq. Arzumdur ki, növbəti yarışımızı Vətənimizin dilbər guşələrdən olan Kəlbəcər dağlarında keçirək.

Qadın hərbi qulluqçular arasında fərdi olaraq birinci yerə layiq görülən mayor Cəmilə İrəfiyeva da sevinc hissini bizimlə bölüşdü. Qalib bildirdi ki, idmanla məşğul olmaq həvəsi onda hələ uşaq yaşlarından başlayıb. "Hansı idman növü ilə məşğul olursan-ol, professional idmançı udub-uduzmağı bacarmalıdır. Buna görə də yarışlarda məğlubiyyəti normal hesab edirəm. Qatıldığım hər yarışda çalışıram ki, qalib gəlim. Bunun üçün əlimdən gələni edirəm. Yarışlarda qalib gəlməyimi şans adlandırmazdım. Bunun üçün günlərlə, aylarla, illərlə əziyyət çəkməlisən. Heç kim birinciliyi asan əldə etmir. Unutmamalıyıq ki, idman zəhməti sevir. Fiziki hazırlığımızı artırmaqda məqsədimiz yarışlarda qalib gəlmək deyil, həm də gələcəkdə döyüş meydanından qalib çıxmaqdır. Tarixə nəzər salsaq görərik ki, biz sülhsevər xalqıq. Ancaq bu gün hər birimizin qəlbində qisas alovu alışıb yanır. Əminəm ki, bu alov mənfur düşmənlərimizi torpaqlarımızdan qeyd-şərtsiz qovub çıxartmadıqca, dövlət sərhədlərimizi bərpa etmədikcə, gələcək nəslin böyüməsi üçün təhlükəsiz ortam yaratmadıqca sönməyəcək."

Növbəti həmsöhbətim kişilər arasında fərdi olaraq birinci yerdə qərarlaşan kiçik çavuş Dair Cumartov bildirdi ki, artıq üç ildir səmti müəyyənetmə yarışlarında iştirak edir.

- 2018-ci ildə də səmti müəyyənetmə yarışlarında kişi hərbi qulluqçular arasında birinciliyi qazanmışdım. Bu il də birinci oldum. Yarışlara çox ciddi hazırlaşırdıq. Yarışlarda mənimsədiklərimi komanda yoldaşlarımla bölüşərək, çalışırdım onlar da təcrübəmdən bəhrələnsinlər. Məqsədimiz yalnız qələbə idi. Bunun üçün bütün bacarığımızı ortaya qoyduq və hər mərhələdə qazanılan xallar bizi qələbəyə bir addım daha yaxınlaşdırdı. Qələbə hissi həyatda bütün hisslərdən üstündür. Ancaq onu ailənlə, dostlarınla paylaşmaq daha gözəldir. Üç övladım var. Onların gözündə qalib olmaq məni çox xoşbəxt edir. Çox istəyirəm ki, gələcəkdə oğlum da yolumu davam etdirsin, Vətəninə və xalqına layiqli övlad olsun.

- Qalib komandada olmaq çox sevindiricidir, - deyə Bakı komandasının digər üzvü qadın hərbi qulluqçu əsgər Hürü Yusifova söhbətə başladı. - İlk gündən hər birimiz əlimizdən gələni etdik ki, keçici kubokun komandamızda qalmasına nail olaq. Yarışlara hazırlıq prosesi çox ciddi və gərgin keçirdi. Hər gün məşqlərdə bildiklərimizi daha da təkmilləşdirirdik və bu işdə köməklərini əsirgəmədikləri üçün komandirlərimizə öz minnətdarlığımı bildirirəm. Mayor Şəadət Nəsibov daima vurğulayırdı ki, təlimdə tər tökənin, döyüşdə qanı tökülməz. Hesab edirəm ki, bizim qalibiyyətimiz bunu bir daha təsdiqlədi. Artıq beş ildir ki, ordu sıralarında xidmət edirəm. Arzum budur ki, növbəti yarışımızı Şuşada keçirək və qazanacağımız qələbəni Cıdır düzündə qeyd edək.

Qalib komandanın növbəti üzvü qadın hərbi qulluqçu əsgər Kəbirə Süleymanova qələbə sevincini bizimlə bölüşərək bildirdi ki, ilk dəfədir səmti müəyyənetmə yarışlarında iştirak edir. "Yarışlarda ilk dəfə iştirak etdiyim üçün çox həyəcanlı idim. Buna baxmayaraq, bütün tapşırıqların öhdəsindən gələ bildik. Qələbə təklikdə əldə olunmayıb. O komandanın bütün üzvlərinin zəhməti nəticəsində qazanılıb. Zərif cinsin nümayəndəsi olmağımıza baxmayaraq, kişi hərbi qulluqçularla çiyin-çiyinə mübarizə apardıq. Ancaq qalibiyyət qarşımızda duran bütün çətinlikləri, əziyyəti unutdurdu. Hərbçi olmaq həm məsuliyyətli, həm də şərəfli peşədir. Qarabağ müharibəsi hər bir azərbaycanlının ailəsində dərin izlər buraxdığı kimi, mənim də ailəmdən yan keçməyib. Dayım Qarabağ müharibəsi əlilidir. Hər dəfə şəhidlərimizin şəkillərini, veteranlarımızı gördə ürəyimdən yalnız bir hiss keçir - torpaqlarımızı işğaldan azad edək, Vətənimizin müdafiəsində canlarını, sağlamlığını itirən qardaş və bacılarımızın qisasını alaq.

Yarışlarda iştirak edən komandaların üzvləri ilə həmsöhbət olduqca, bir daha anlayırıq ki, qarşıya bir məqsəd qoyursansa, tez ya gec ona çatacaqsan. Bu gün hər bir Azərbaycan əsgərinin, gizirinin, zabitinin əsas amalı Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın geri qalanını da işğaldan azad etməkdir. Hər kəs kimi biz də döyüş əmrinə hər an hazırıq. Həmin gün bilik və bacarığımızdan döyüş meydanında istifadə edərək Böyük Qələbənin sevincini xalqımıza yaşadacağıq.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 550
Nüsxə 3950